# BİR AYRILIQ ODU VAR...

## ŞAİR HÜSEYN KÜRDOĞLUNUN XATİRƏSİNƏ POEMA-EPOS

### AĞRILARIN İŞIĞINDA

**Proloq**

Ey Tanrım, düşüncəmə işıq ver, sözə gəlim,
Od qalansın sinəmdə, yanmağa közə gəlim.

Bilirəm ki, yanmasam sözüm ağrını bilməz,
Göynəməsə sinəmdə közüm güllənməz, gülməz.

Ağrısız bu dünyada nə bitər, nə göyərər,
Analar da ağrıdan çiçək dərər, gül dərər.

Əzabdan od götürər, yığar cana közləri,
Ağrıların içində gülər ana gözləri.

Təzə yarpaq göyərməz, ağac çəkməsə ağrı,
Sünbüllər dənə dolmaz, kəndli əkməsə ağrı.

Bir Vətən aşiqinin qanına dolan ağrı,
Torpaqda qızarmasa, olacaq yalan ağrı.

Ayaq basdığın yerə bəsirət gözüylə bax,
Hər addımda ağrı var, boylanır, gözüylə, bax.

Sənətkarın sözündə əzablar dilə gələr,
Yaşayar yaddaşlarda zamana, ilə gələr.

Tarixin alt qatında insan əzab kökündür,
Əzablar insanlığın babası, soy kökündür.

Aqillərin sözünə can verib ağrı, acı,
Ağrı ilə yoğrulub müdriklərin söz tacı.

Ağrı ilə yaşayıb öz ömründə Nizami,
Ona görə ağırdı söz ömründə Nizami.

Nəsiminin ağrısı ucalıq taxtı qurdu,
Zamanlara bərabər əzablar vaxtı qurdu.

Ustadların dilində hər ağrının adı var,
Hər yaşarı ağrının bir kamil ustadı var.

Dilimin yanğısında Füzulinin heyrəti,
Gözlərimdə göynəyir aşiqlərin həsrəti.

Xətaidə ağrıdı qardaşdan gələn xəta,
Dəli qardaş əlində hər daşdan gələn xəta.

Hər ağrının öz halı; min il yazsan, qurtarmaz,
Ağrıları sinəndə tel-tel assan, qurtarmaz.

Ağrılı dağlar ağrı, yaralı torpaq ağrı,
Şəhidlik ağrısıyla qopan hər yarpaq ağrı.

Ağrıdı yurddan ayrı böyüyən nəsillər də,
Ağrıdı yaddaşlarda didərgin fəsillər də.

Mən ağrıdan doğuldum, ağrısız yazım yoxdu,
Ağrı yoxsa qələmim, kağızım, yazım yoxdu.

Hər kim məndən soruşsa "günlərin necə keçir?!"
Deyirəm ki, ağrısız gündüzüm gecə keçir...

Hər gələn təzə bahar - fəsil kədər gətirər,
Canımda dərd göyərər, yaşım ağrı bitirər.

Ayrılığın ağacı varlığımda kök atıb,
Kölgəsində taleyim, bəxtim uyuyub, yatıb.

Bu ağrı ağacının çiçəkləri başımda,
Gülləri xanə-xanə bayatı yaddaşımda.

Ağrı dağından gəlir körpüdən keçən karvan,
Söz içində sözümdən dönüb su içən karvan.

Düşüncəmdə saxlayar durnalar avazımı,
Gələcəyə aparar lələk-lələk yazımı.

Hər yazıda ağrımın, dərdimin göynəyi var,
Hər sözün alt qatında ayrılıq köynəyi var.

Bir səhra dəvəsiyəm, ilham çəkib aparar,
Ağrıları canımdan zərrə-zərrə qoparar.

Canımdan qopan ağrı söz olub dilə gələr,
Sanarsan yaz ağzıdı - bülbüllər gülə gələr.

Bulud-bulud ağrılar başım üstə dolanar,
Ağrılı buludlarım yaşım üstə dolanar.

Ağrının karvan yolu gəlib üstümdən keçər,
Düzdəki ağ dəvənin dərdi tüstümdən keçər.

Gəzdikcə xəyalımın quşqonmaz zirvəsini,
Oxuyuram qəlbimin dərd-kədər nəğməsini.

Nəğmələrim yayılır ulduzlar arasına,
Qayıdıb məlhəm olur Vətənin yarasına.

İlləri qaralayıb ayrılığın qarası,
Yuya bilməz sellənsə gözlərimin qorası.

Qismətimə yazıldı qaranın ağrı rəngi,
İllərcə dəyişmədi qoranın dərd ahəngi.

Yamanlarım kor baxdı, görmədi əməlimi,
Görmədi əməlimdə yaxşılıq təməlimi.

Zəhərli küləklərin zavalı döydü məni,
Pis gözlərin nəzəri, neştəri oydu məni.

Bədxahların tənəsi yaradır hər dönəmdə,
Tənəli ağrılardan güllər bitdi sinəmdə!

Gözlərimdən su verdim laləli çəmənlərə
Dərdlərim məclis qurdu naləli çəmənlərə!

Ey Tanrım, ağrı çəkən sənə sadiq bəndədir,
Həqiqətə bağlıdır, doğru, düzgün dindədir.

Hər kimin ağrısı var - kimdirsə yazım bilər,
Hansı yuxu nə deyir, Yusifdə yozum bilər.

Ağlar güləyən Sabir anlayanın dərdidi,
Mirzə Cəlil ağrısı ağrıların mərdidi.

Söhrab Tahir dərdinin Azər-Azər dili var,
Hər ağrısı bir canlı, qələm tutan əli var.

Adı Bəxtiyar olan çoxdu sözün yanında,
Bircə Bəxtiyar vardı, söz dolandı qanında.

Ağrıyanı ağrısız çətin duyar, anlayar,
Ağrısız doğulsaydı yaranmazdı Şəhriyar.

Ağrısızlıq eşqinə çox şairlər tor atdı,
Vurğunluğun ağrısı Səməd Vurğun yaratdı.

Unudulmaz Müşfiqin maralı ağlar qaldı,
Ağlar-ağlar ağrılar sinəsi dağlar qaldı.

Hər rəngin öz dilində bir dağdı Rəsul özü,
Ağrıların əlində çildağdı Xəlil sözü.

Hüseyn Kürdoğlu səsi ağrıların başıdı,
Zamandan ağır yükü başı üstə daşıdı.

Əli Kərim adının özü şair ağrısı,
Yaşayar hər sözündə ölməz şeir ağrısı.

Cavidin dağ qüruru baş əymədi bir yada,
Tapılmaz, əvəz ola başqa ağrı dünyada.

Sərdar Əsəd ağrısı cığır açdı, iz qoydu,
Yaddaşda əyilməyən, bükülməyən diz qoydu.

Məsud Əli oğlunu görə bilsən röyada;
Hər yandan dalğa döyən ağrı dağlı bir ada.

Şahmalı Kürdoğlunun ağrısı Vətən dərdi
Qarabağda kim dərər dərdindən bitən dərdi.

Anlamağı Anarda ağrıların düyünü,
Vaqifdə "Yaşıl ada", Yusifdə "Qətl günü".

Məmməd Araz ağrısı, Zəlimxanın yarası,
Dərdin Vətən yarası, sözün ürək parası.

Uca Ağrı dağıydı atam Zal Əziz oğlu,
Dedi bu dağ sənindi, sən onun əziz oğlu!

Sıralasam hər adı yer tutmaz, göyə sığmaz,
Ağrı-ağrı şairlər şəhərə, köyə sığmaz.

Ruhumuzu qoruyan ağrılar keşik çəkir,
Körpəsini uyudan analar beşik çəkir.

Uca Ağrı dağının zirvəsi mənim ağrım,
Ağrısızlıq içində yuxuma qənim ağrım.

Ey Tanrım, bezmədim mən göndərdiyin ağrıdan,
Görərsən qürurumu baxsan yenə Ağrıdan.

Ağrılar arasında düşüncəmə nur gəldi,
İlhamın yaz yağışı - Araz gəldi, Kür gəldi.

Çağladı duyğularım, dərdini içdi sözüm,
Ayrılığın səddini dağıtdı, keçdi sözüm.

Durnalar qatarlandı... sözlər uçdu dilimdən,
Mən qələmdən tutmadım, qələm tutdu əlimdən.

Ey Tanrım, ağrıları çəkib alsan qəlbimdən,
Ruhum da uçub gedər əsər qalmaz təbimdən.

Xələflinin hər sözü ağrıdan, dağdan gəlir,
Bulaqların saf suyu qayadan, dağdan gəlir.

*26.03.2017*

### BİR AYRILIQ ODU VAR...

*Bir ayrılıq odu var - canımızda yaşayar,*
*Dolanar damar-damar, qanımızda yaşayar;*
*Ağrısı yolumuzun zamanında, çağında,*
*Adımızda yeriyib, sanımızda yaşayar.*

### KÖNLÜM

Bəzən bircə söz özünü ifadə üçün kifayət qədər - bəs deyincə imkanlar açır. Elə *"çəkər"* (*çəkmək*) sözündə olduğu kimi...

*Dünyaların ağrısını varlığına çəkər könlüm,*
*Dünya boyu arxasınca bir karvanı çəkər könlüm.*

*Özü ilə bu dünyanın arasında tərəzi var,*
*Ağrısına arxa gələn Tanrısını çəkər könlüm.*

*Hara getsəm, hara dönsəm qibləsi var istəyimin,*
*Öz eşqində cazibəsi - ahənrüba, çəkər könlüm.*

*Yollarına boylanıram, gözə gəlməz gözlədiyim,*
*Tozu gəlsə tutiyadı, gözlərinə çəkər könlüm.*

*Ayrılığın odu yanır Xələflinin ürəyində,*
*Günlər, aylar qəm gətirər, həsrətini çəkər könlüm.*

*27.03.2017*

### ƏZƏLDƏN ƏZƏL SÖZÜM

Könlüm, bu dünyaya yetirsən nəzər,
Görərsən hər kəsi bir cür qəm üzər.
Olsa da sevinci, şadlığı yenə
Hərənin qəlbində bir kədər gəzər.

Kədər də dünyanın bir dadı, tamı
Bəzən tora salıb çəkir ilhamı.
Şərikdi sevincin şirin payına,
Dadından tamarzı qoymaz adamı.

Dərd də bir toxumdu; söyləsək yetər,
Düşdüsə insanın ruhunda bitər.
Qiymətdən düşməyib Sədinin sözü
Dərdsiz bir adamı axtarma hədər.

Dəmin dəm yeri var, qəmin qəm yeri,
Aşiqlər yanında bir Dilqəm yeri.
Dəmlərin içində boş qalan badə,
Qəm tutan adamın bəxtikəm yeri.

Bir ömür dünyada xeyir-şər demək,
Bir gecə, bir gündüz pay düşər demək.
Bir ağ var, bir qara insan içində
Bütün rənglər özü bir bəşər demək.

Başımda min fikir, neçə min güman,
Bir soraq da gəldi Ömər Xəyyamdan:
*"Dünyadan gedəndə bu zalım fələk*
*Bir qurtum suya da eləməz imkan".*

Yazımı şimşəyim, dolum gətirər,
Sözün zirvəsinə yolum gətirər.
Olum var ölümdən min dəfə betər,
Ölüm var insana olum gətirər.

Bir könül yıxılsa, şair ömrüdü,
Bir sinə yaxılsa, şair ömrüdü.
Sözlər zərrə-zərrə iztirab demək,
Zərrələr yığılsa, şair ömrüdü.

Yaşamaq həvəsi niyə qınansın,
Yaşamaq gözəldi, min yol sınansın.
Desən ki, dünyaya gəlmərəm bir də,
Düşünmə, bir kimsə buna inansın.

*(Davamı 9-cu səhifədə)*

*(Əvvəli 8-ci səhifədə)*

Çağırsam kim gələr gedəm dağlara,
Gözümün didəsi - didəm dağlara.
Açam nisgilimi yellərə verəm,
Sinəmdə yaranı didəm dağlara.

Ey könlüm, gəl gedək dərd ölkəsinə,
Zər tutaq, bəxt açaq nərd ölkəsinə.
Sözdən körpü salaq, yollar açılsın,
Ölümdən güclünün mərd ölkəsinə.

Dirili Qurbani əyardı, gələ,
Sözünün neştəri oyardı, gələ.
Dağıda divarı, sökə hasarı,
Eşqindən, kamından doyardı, gələ.

### SÖZÜMÜN ƏZƏLİ SÖZÜM

Kürdoğluya salam olsun günümdən,
Səssiz-səssiz dinlədiyim ünümdən.
Deyirlər dərdin də toy mağarı var
Söz açım şairə toy-düyünümdən.

Yurdun damı, daşı yurd oğlunundu,
Ulasa bəxtinə - qurd oğlunundu.
Sözümdə uca yer - ulu mərtəbə
Xalqın şair oğlu Kürdoğlunundu.

Söz ölməz - neçə ki, qüdsiyyəti var,
Müqəddəs ruhu var, ülviyyəti var.
Sözünü yaşadan böyük sənəti
Özünü yaşadan şəxsiyyəti var.

Hüseyn Kürdoğlunun şair taleyi,
Dərdindən yarıyıb öyür taleyi.

Dedi ki, qəlbimə yara vurma sən
Getmək də, gəlmək də əbədi yoldu.

Yaz ola çəmənin gözü güllənə,
Dağları dil aça, düzü güllənə;
Dirili Qurbani oyanıb gələ,
Gəraylı könlümün közü güllənə.

Şairlərin sırasında,
Öz yeri var Kürdoğlunun.
Ariflərin arasında
Söz yeri var Kürdoğlunun.

Bir bülbüldü kollar üstə,
Qucaq açan qollar üstə,
Təzə cığır, yollar üstə,
İz yeri var Kürdoğlunun.

Bir gözəlin həyasında,
İnadının qayasında.
Həqiqətin mayasında
Düz yeri var Kürdoğlunun.

Suyu dərman Ağbulaqda,
Ayrılığa dağ bulaqda,
Yörəsi yığnaq bulaqda
Diz yeri var Kürdoğlunun.

Arzularda, diləklərdə,
Könüllərdə, ürəklərdə.
Səhər əsən küləklərdə
Yüz yeri var Kürdoğlunun.

Dağlarının hər gəzində,
Qızılboğaz, Çil gəzində.
Türbəsində, günbəzində
Göz yeri var Kürdoğlunun.

Dilimdə göyərib bitən divani
Simlərə çatmamış təzənə gəldi.

Tərsə dönmüş, pis zəmanə çağı görsən, Qarabağdı,
Ürəklərdə sınıq-sınıq tağı görsən, Qarabağdı.
Harda varsa ələmli yas, qiyamətə qalan, qisas,
Talan üstə qan sümürür yağı, görsən Qarabağdı.

El içində tənə-töhmət - hardan gəlsə, yenə oxdu,
Dilə çəksən hər mətləbin öz mənası, sözü çoxdu.
Yara-yara varlığımda sağ-salamat bir yer yoxdu,
Aç sinəmi, şaxə-şaxə tağı görsən, Qarabağdı.

Qürurunun beli sınmış Kəlbəcəri unutmasan,
Ağlar gözlü Zəngilanın yarasını qanatmasan,
Qara bulaq sularına - Köndələnə can atmasan,
Bir Ağdamın gözlərində ağı görsən, Qarabağdı.

Min illərin yadigarı abidələr dil-dil ağlar,
Hər daşında, qayasında dərd danışar, tel-tel ağlar,
Şuşa - dağlar gözəlinin Cıdır düzü gül-gül ağlar,
Sinəsində çalın-çarpaz dağı görsən, Qarabağdı.

Natəvanın qəzəlləri havalanar, söz-söz baxar,
Üzeyirin xatirəsi hopan yerlər göz-göz baxar,
Büryan olan varlığımda Dirі canım köz-köz baxar,
Yana-yana əriyirsə yağı görsən, Qarabağdı.

Dilsiz-dilsiz dərdlərini küləklərə açanı gör,
Ümidləri, gümanları duman olub uçanı gör,
Gözü yolda Cəbrayılı, Qubadlını, Laçını gör,
Əsir olan zirvələri, dağı görsən, Qarabağdı.

Ey həmdəmim, Xələflinin ocağını, közünü gəz,
Aç könlünün qapısını doğrusunu, düzünü gəz,

Aqil övladlardan nəvə toyunu,
Nənə sevincini görsən, yaxşıdı.

Xələfli aşiqdi söz gülzarına,
Bülbüllər can atar çəmənzarına,
Vətən torpağında öz məzarına,
Zamanı gələndə girsən, yaxşıdı.

Yaxşıdır, biçməyə vərimiz olsa,
Halal zəhmət üstə tərimiz olsa.
Zamanı çatanda ocaq başında
Yaxşıdır ölməyə yerimiz olsa!

Torpaq bu dünyanın bazar yeridir,
Tamahın, iştahın azar yeridir,
Torpaq təkcə bizə çörək, duz deyil,
Torpaq, həm də bizə məzar yeridir.

Vurğunam eşqimin qibləgahına,
Bir quş qanad salmaz seyrangahına.
Könlümün qapısı açıq olsa da,
Hər kəsi buraxmaz öz dərgahına.

Duz-çörək, düz-çörək - deyib dədələr,
Ləyaqət paltarı geyib dədələr.
Görk olsun əyriyə - bəlkə, düzələ,
Düzü düz görəni öyüb dədələr.

Başı torpaq çəkər, ayağı da göy,
Aləmə toy tutar çox içilsə mey.
Hər sözün qısası hörmət gətirər,
Sözünü uzatma bilsən də çox şey.

Sözün çəmənindən Xəyyam nə dərdi,
Gördü ki, dərdiyi dərddi, kədərdi:
*"Fələyin odunda yanan canlardan*
*Yüksələn tüstüdən kim xəbər verdi?!"*

Biləsən dünyanın gözəli dərdi,
Vurulsan eşqinin əzəli dərdi;

# BİR AYRILIQ ODU VAR...

## ŞAİR HÜSEYN KÜRDOĞLUNUN XATİRƏSİNƏ POEMA-EPOS

Tanrı dərgahından pay alıb yanan
Sözü başdan-başa şeir taleyi.

Bəxtinə kor bəxti hay da vermədi,
Qızıl balıq üzən çay da vermədi.
Sevdiyi ölkənin, yazdığı yurdun
Səxavət kisəsi pay da vermədi.

Ustadın ruhuna yol oldu könlüm,
Həsrəti qucmağa qol oldu könlüm;
Açıla qəfəsi, bülbülü gələ,
Yolların üstündə kol oldu könlüm!

Dövrandan dad çəkən amanı gördü,
Yurdunu talayan yamanı gördü.
Qoca Türkün yatağanı qınında
Qurdağzı bağlayan zamanı gördü.

Acısı, şirini dilində yandı,
Günündə közərdi, ilində yandı.
Göz yaşı qurudu yanaqlarında
Vüsalın qönçəsi gülündə yandı.

Fikir burumları istimi kəsir,
Qalxıb havalanır tüstümü kəsir.
Dilimdəki sözü çəkən qələmi
Görəndə qəm-kədər üstümü kəsir.

İllərdi bir kərə gülə bilmirik,
Dərdin dərəsindən gələ bilmirik.
Ruhumuz dil tapıb elə qovuşur
Bəzən dərdi-qəmi bölə bilmirik.

Söz adlı bir canda döyünür ürək,
Həsrətdən yarıyıb öyünür ürək.
Canımız zamanın dəyirmanında...
Beləcə bir yerdə üyünür ürək!

Ömürdən qara gün başda ağ dəndi,
Ağın da içində qara dən-dəndi.
Sərraf bir nəzərlə baxıb söyləyər,
Daş daşı yedisə, işi dəndəndi.

Tanrım, Əli Rzaya təzə səfər ver,
Zal oğluna dərdə dözüm, təpər ver.
Hüseyn Kürdoğlunun qədər payından
Sözə gətirməyə ağrı, kədər ver.

Xələfliyə dedim: ötkəmsən axı,
Sözün yoxsa əgər, görkəmsən axı.
Sənin tapındığın ustadlar getdi
Onların yanında sən kimsən axı?

Xələfli sözümdən kədərə doldu,
Gördüm ki, ovqatı saraldı, soldu.

Xələflinin ərkinə bax,
Hər mənanı dərkinə bax,
Yanmağının görkünə bax,
Köz yeri var Kürdoğlunun.

Baxt da bir qayadı, baxt yaran görər,
Zaman hasar çəksə, vaxt yaran görər.
*"Bir tənha qovağam"* yolun üstündə
Bəlkə bir kölgəlik axtaran görər.

### DƏDƏLƏRDƏN GƏLƏN YOL

Hörməti hikmətdə, payda - deyiblər,
Sözü də qədərdə, sayda - deyiblər.
Ustadlar dastanda əzəl Divani,
Sonluqda müxəmməs qayda - deyiblər.

Dastanda girişi divani bil sən,
Hər sözün ağrısı, divanı bil sən.
Sözlər əzabını çəkər özünə
Hər sözü hikmətdə divani bilsən.

Divani yazasan misralar dəli,
Hər söz havalana, dilə gələli.
Ruhunda canını çəkə divana
Canın da şahidi eşqi, əməli.

Qəlbim bir sevincə dolub gedəydi,
Ayrılıq gülləri solub gedəydi.
Yazdıqca ilhamın şirin dilləri
Divanə könlümü alıb gedəydi.

Soyuqdu, divanım qırov üstündə,
Kəpəzin göz yaşı Murov üstündə.
Sözümü bazara çəkdi bu dövran
Aldı varlığımı girov üstündə.

Hakim haqqı yesə, ədalət olmaz,
Doğru da dünyadan kamını almaz.
Divan hökm eləsə, divani gülsə,
Haqsızın cəzası havada qalmaz.

Dərdin torpağını çəkdi divani,
Qəmi toxum-toxum əkdi divani.
Qarabağ üstündə kökləndim sözü,
Ağladı, göz yaşı tökdü divani.

Ürəyim telləndi, ustadı gəlsin,
Min adın içində öz adı gəlsin.
Hələb meydanında qanı süzülən
Aşiqin dilində fəryadı gəlsin.

Çəkdim simlər üstə təzənə gəldi,
Kökləndi duyğular tez ana gəldi.

Çəmən-çəmən yanıb gedən arzuların özünü gəz,
Uralanmış, gülü solmuş bağı görsən, Qarabağdı.

Vuruşmaq ağılla, təmkinlə yaxşı,
Əslinlə, soyunla, kökünlə yaxşı.
Qəsbkar düz yola gəlməsə əgər -
Döyüşmək qərəzlə, lap kinlə yaxşı.

Yadlar yedi, yudu üstündən sonra,
Varımız, yoxumuz bütündən sonra;
Divarın dibiylə hara gedirik,
Divar da qurtarar bir tindən sonra.

Gələ ustadnamə, sözə düzülə,
Açıla naxışı gözə düzülə,
Ruhumda dillənən alovdan keçib
Hər söz od içində közə düzülə.

Söz dedi, yaratdı, ustad kam getdi,
Ustad görmədisə, hərif xam getdi.
Bildiyini bilməyənə deməsən,
Deyərlər dünyadan bir nakam getdi.

Əsəb sarı simdi - ürək qayğımız,
Arzuya əl yetmir - dilək qayğımız,
Daş olub, asılır sözdən, qələmdən,
Yazmağa da qoymur çörək qayğımız.

Aşıq halal bilər versə canı da,
*"Qaytarma"* eşqinə *"Qəhrəmanı"*da.
Vurğun deyər sözdü dilək budusa,
*"Ehtiyac qul eylər qəhrəmanı da"*

Yaxşıya aqillər yaxşı yol - deyər,
Su atar dalınca xoş gün diləyər.
Divani divana çəksə də məni,
Yenə ustadnamə sakit ol - deyər.

Könül, sözlərimə yaxşı qulaq as,
Qəlbini dünyaya versən, yaxşıdı.
Məhəbbət bağına bağban olub sən,
Sevgi güllərini dərsən, yaxşıdı.

Gün gələr gileylər kiriyər gedər,
Bədxahlıq buzları əriyər gedər,
Örtüdə nə qalsa, çürüyər gedər,
Dərdi də sinəndə sərsən yaxşıdı.

Görməyə gözlərin dərd sürgününü,
Çəkməyə həsrətin yurd sürgününü,
Elə yaşa, qocalığın gününü -
Deyələr aqilsən, pirsən, yaxşıdı.

Qələmim vəsf edər, sevər boyunu,
Unutma kökünü, əsli-soyunu,

Kürdoğlu sözünü sanma hədər sən;
*"Dirilik suyudur Füzuli dərdi"*.

Hikmət layiq ola şaha, yaxşıdı,
Dinləyən söyləyə aha, yaxşıdı.
Birini deməsən ustadnamənin,
Birini də desən, daha yaxşıdı.

Sinəsi ocaq olmayan,
Közü hardan, nədən bilsin?
Ədəb-ərkan, yol görməyən
Tozu hardan, nədən bilsin?

Harın olar haram yeyən,
Düzü əyib, yalan öyən,
Çevirib astarı geyən
Üzü hardan, nədən bilsin?

Tənə, töhmət, ar daşıyan,
Gözlərində tor daşıyan,
Bəsirəti kor yaşayan
İzi hardan, nədən bilsin?

Sevdası bülbül olmayan,
Yarası gül-gül olmayan,
Ürəyi tel-tel olmayan
Sazı hardan, nədən bilsin?

Hər bir sözün yüz mənası,
Sərraf olan düz qanası.
Ögey olsa söz anası
Sözü hardan, nədən bilsin?

Dağa çıxmasa səhərsiz,
Dərə görməsə təhərsiz,
Dərədən-dağdan xəbərsiz,
Düzü hardan, nədən bilsin?

Alçağa ucadı desən
Allah götürməz, biləsən.
Qarın üçün çörək kəsən
Duzu hardan, nədən bilsin?

Aş görəndə baş olanlar,
Bir göyərməz daş olanlar,
Sinəsində qış olanlar,
Yazı hardan, nədən bilsin?

Xələflini bilməyən kəs,
Haq yoluna gəlməyən kəs,
Çoxu gördüm deməyən kəs
Azı hardan, nədən bilsin?

**Əli Rza XƏLƏFLİ**

*(Davamı var)*